# “Ən sonda yazacam ən son şeirimi...”

## Hikmət Fərzəli



### Adam

Hər havaya qol açmadı
Əldə oynatdığın adam.
Dili başına bəladır,
Dilindən tutduğun adam.

Ruhu göydə Merac idi,
Söykənilən yamac idi,
Kölgə salan ağac idi,
Yıxıb qurutduğun adam.

Dərd-səri  ağır gələcək,
Sözü, söhbəti gedəcək,
Ölsə, qiymətə minəcək,
Ucuza satdığın adam.

Həyat hər gün əlifbadır,
Öyrəndikcə zəhər dadır.
Dünya, səni unutmadı,
Sənin unutduğun adam.

### Gizlənib

Dünya-aləm sirri-xuda.
Sirr ki, içində gizlənib.
Boş olan düşüb qabağa,
Bərki içində gizlənib.

Zər-zibayla bürün, sarın.
Bilən bilir nöqsanını.
Yüz adamdan doxsanının,
Çirki içində gizlənib.

Başı çən duman adamın,
Səbrə sığınan adamın,
Tanrıdan uman adamın,
Ərki  içində gizlənib.

### Yazıram

Bahar həvəslisən, qınama məni,
Mən elə əzəldən qışdan yazıram.
Mənim söz xurcunum bapbalacadır,
Xırda-xırda üçdən-beşdən yazıram.

Bu yük çiynimdədir, ha qalax, ha əyil,
Könlüm ürəyimin yağını yeyir.
Divara hörülən kərpicdən deyil,
Mən qürbətə düşən daşdan yazıram.

Bu vaxtın azanı,təzəni çoxdur,
Boşa dınqıldayan qazanı çoxdur.
Çalıb oynayanın yazanı çoxdur,
Mən də iki damla yaşdan yazıram.

Dərdimlə rahatam, sevdim dərdimi,
Kimsəyə vermərəm halal yerimi.
Ən sonda yazacam ən son şeirimi,
İndidən, lap bəribaşdan yazıram.

***

Hər yarpaq ağacın dibinə düşmür,
Sovrulub çəpərdən aşanı da var.
Hər su dəryasına çatıb qovuşmur,
Məcrasından çıxıb daşanı da var.

Hər körpə lay-layla yuxuya getmir,
Hər kəsin can deyən anası olmur.
Çoxları yurd salır, yuva düzəldir,
Hər kəsin çırağı yanası olmur.

Kiminin yükü var, quş tükü kimi,
Kiminin şələsi dağ kimi olur.
Kimi çörəyini daşdan çıxarır,
Kiminin hər işi yağ kimi olur.

Adəm övladının istəyi sonsuz,
Hamının önünə cin çıxa bilməz.
Hər igid yuxuda ağ ata minir,
Hər kəsin yuxusu çin çıxa bilməz.

Eyni çata bilməz məqsədə insan,
Ayaq başa dönür, baş-ayaq olur.
Bu, çərxi-fələkdir, incimə, könlüm,
Dünyanın işləri bu sayaq olur.

### Gedək

Kimsəyə demədən gəldik,
Kimsəyə demədən gedək.
Bu ömür-gün Sirri-Xuda,
Biz yenə bilmədən gedək.

Ömrün savaşı, cəngi var,
Qələmi var, tüfəngi var,
Çox da ki, min bir rəngi var,
Sən ağ rəngi bəyən, gedək.

Min üzü var hər üzün də,
Bir həddi var dözümün də,
Hamı qalsın yer üzündə,
Bir sən, bir də ki, mən gedək.

### Deyiləm

Hamı bildiyi qədərsə,
Bildiyim qədər deyiləm.
Çox mətləblər bilməsəm də,
Çox da bixəbər deyiləm.

Dil tərpənir, başlar gedir,
Əldən yar-yoldaşlar gedir.
Başımda savaşlar gedir,
Demək bir nəfər deyiləm.

Neynim, qiymətlisən, ləlsən,
Neynim axı bəxtəvərsən.
Fələk, sən məndən betərsən,
Səndən ki, betər deyiləm.

Dörd bir yanın dörd divarsa,
Qəm yemə, Yaradan yarsa.
Üç-beş sətir sözüm varsa,
Çox şükür,hədər deyiləm.

***

Daş qaynat, utanma,qadın
Bu tifilləri yola ver.
Padşahın keçmişinə
Salavat çevir, dua ver.

Daş şorbası doyumludur,
Bir qaşıq içən doyacaq.
Bu körpələr bu daş üçün
Böyüyüb şəhid olacaq.

Kitablarda oxuduğun
Ya ipək, ya al geyərsən.
Səbr et, qoy yeyib doysunlar,
Sən də bir gün bal yeyərsən.

Mənim də bir həyanım yox,
Urvatımı itirmişəm.
Bu şorban qaynasın deyə
Bir az çırpı gətirmişəm.

***

Can atma sarayda mərmər olmaga,
Torpaq ol, bağrında gül-çiçək bitir.
Dünyadan səadət gözləmə daha,
Özün bu dünyaya səadət gətir.

Söykənər zirvəsi qarlı dağlara,
Gör neçə çınqıllar,gör neçə daşlar.
Sən də bir çinar ol, aç qollarını,
Qoy sənə sığınsın yaralı quşlar.

Sən sönən ocağın közünü üfür,
Qoyma dörd yanını zülmət bürüsün.
Tanrının nuruna aç pəncərəni,
Könlündən dünyaya işıq süzülsün.

Ruhun sıgmadısa dar qəliblərə,
Aldanma məzarın dar olduğuna.
Söykən bir özünə, bir də Tanrıya,
İnan ədalətin var olduğuna!

***

İblisin ən yumşaq adı siyasət,
Bu bədbəxt dünyanın başı fırlanır.
Tanrı məəttəldir adəm oğluna,
Dolusu boşalıb, boşu fırlanır.
Sənin də heyrətdən gözün bərəlib,
Ağsaçlı,   qaralar bağlayan kişi.
Görürsən, taleyin üzə dirənib,
Gedənin ardınca ağlayan kişi.
Suallar önündə baş-başa durub,
İnandın ömrünə doğan hər ilə.
Sənin gözlərinin yaşı quruyub,
Mənimsə gözlərim yol çəkir hələ.
Qırışıq üzünlə yol çəkən gözüm,
Ömrün dolayında üz-üzə gəlib.
Sənin arzuların, mənimsə sözüm,
Ya daşa dirənib, ya gözə gəlib.

**Səhifəni hazırladı: Tural Turan**